İMAM ƏLBANİNİN ƏSƏRLƏRİ SİLSİLƏSİNDƏN 2

Tovhid.info

*İmam Muhəmməd Nasiruddin əl-Əlbani*
(Allah rəhmət etsin)

# HƏDİSLƏRİN İSLAMDA YERİ

## QURANIN HƏDİSLƏRSİZ ANLAŞILMAYACAĞININ BƏYANI

**Tərcümə və haşiyələr:**
***Əbu Zeyd Həbibli***

İMAM ƏLBANİNİN ƏSƏRLƏRİ SİLSİLƏSİNDƏN: 2

# HƏDİSLƏRİN İSLAMDA YERİ

## QURANIN HƏDİSLƏRSİZ ANLAŞILMAYACAĞININ BƏYANI


***Müəllif:***

İmam Muhəmməd Nasiruddin əl-Əlbani

(Allah qəni-qəni rəhmət eləsin!)

***Tərcümə və haşiyələr:***

Əbu Zeyd Həbibli

بسم الله الرحمن الرحيم

# MÜQƏDDİMƏ

Həmd Uca Allaha məxsusdur! Peyğəmbəri Muhəmmədə, onun ailəsinə və əshabına Allahın xeyir-bərəkəti olsun!

Bu risalədə yazılanlar hicrətin 1392-ci ili, mübarək Ramazan ayında Qətərin paytaxtı Doha şəhərində söylədiyim mühazirənin xülasəsidir. Dostlarımızdan bəziləri mənə həmin mühazirəni özündə mühüm faydaları ehtiva etdiyindən dolayı, kitab halına salmağı təklif elədi. Çünki müsəlmanların bu kimi mövzularda daha çox mariflənmələrinə ehtiyac vardır. Mühazirədə qeyd edilənlərin daha geniş kütləyə çatması üçün bu təklifi qəbul etdim və həmin mühazirəni kitab halında nəşr etdim. Qeyd olunan əsas məlumatların oxucu tərəfindən daha yaxşı anlaşılması üçün kitaba bəzi müfəssəl mövzular əlavə etdim.

İzzət və cəlal sahibi Allahdan təmənna edirəm ki, məni Öz dərgahında dinini müdafiə edənlərdən, şəriətinə yardım edənlərdən qərar versin və qədəmlərimi dini üzərində sabit etsin. Həqiqətən, O özündən yardım istənilənlərin ən kərim olanıdır.

Dəməşq şəhəri, hicri 1394-cü il, məhərrəm ayının 22-si.

⁂ ⁂ ⁂

# HƏDİSLƏRİN İSLAMDA YERİ

Həmd ancaq Allaha məxsusdur! Ona həmd edir, Ondan yardım istəyir və məğfirətini diləyirik. Nəfslərimizin şərindən və pis əməllərimizdən Ona sığınırıq. Allah kimi doğru yola yönəltsə, onu heç kəs azdıra bilməz, kimi də azdırsa, onu heç kəs doğru yola yönəldə bilməz. Mən şəhadət edirəm ki, Allahdan başqa haqq məbud yoxdur. O, təkdir və şəriksizdir. Yenə şəhadət edirəm ki, Muhəmməd ﷺ Allahın qulu və son elçisidir.

*"Ey iman edənlər! Allahdan Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!"* (Ali-İmran, 102)

*"Ey insanlar! Sizi tək bir candan xəlq edən, onun özündən zövcəsini yaradan və onlardan da bir çox kişi və qadın törədib yer üzünə yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən cürbəcür şeylər istədiyiniz Allahdan və qohumluq əlaqələrini kəsməkdən həzər edin! Həqiqətən, Allah sizə nəzarət edir"* (ən-Nisa, 1).

*"Ey iman edənlər! Allahdan qorxun və doğru söz söyləyin ki, O, əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Onun elçisinə itaət etsə, böyük bir uğur əldə edər"* (əl-Əhzab, 70-71).

Şübhəsiz ki, sözlərin ən doğrusu Allahın kəlamı, yolların ən gözəli isə Muhəmmədin yoludur. Əməllərin ən pisi dində sonradan ortaya çıxan yeniliklərdir. Sonradan dinə salınan hər bir əməl bidət, hər bir bidət isə zəlalətdir. Hər zəlalət isə Cəhənnəm odundadır.[1]

---

[1] İmam Əlbaninin bu bölümdə bura qədər qeyd etdikləri "Xütbətül-hacə" adı ilə məşhur olmuş və Peyğəmbərdən ﷺ səhih sənədlərlə nəql olunmuş bir xütbədir. Peyğəmbər ﷺ bir çox məclislərini, nikah mərasimlərini, o cümlədən də cümə xütbələrini bu xütbə ilə başlayardı. İmam Əlbaninin öz mühazirəsini və kitabını məhz bu xütbə ilə başlaması onun Peyğəmbərə ﷺ tabeliyinin gözəl bir nümunəsidir. Bu, Təhavi, imam İbn Teymiyyə və İbn Qeyyim kimi bəzi İslam alimlərinin də adəti olmuşdur. İmam Əlbani bu xütbənin bütün rəvayət yollarını bir araya cəm edərək "Xütbətül-hacə" adlı kiçikhəcmli bir risalə qələmə almışdır. Bu barədə geniş məlumat almaq istəyən həmin kitaba müraciət edə bilər.

Mən bilirəm ki, bu konfransda fəzilət sahibi alimlərin və hörmətli doktorların yanında mövzu ilə əlaqədar onların hali olmadıqları yeni bir məlumat verə bilməyəcəyəm.[1] Elə isə mənim bu məclisdə söyləyəcəklərim yalnız və yalnız Uca Allahın *"Sən xatırlat! Həqiqətən də, xatırlatmaq möminlərə fayda verər"* (əz-Zəriyat, 55) ayəsinə müvafiq olaraq sadəcə xatırlatma rolunu oynayacaqdır.

Ramazan ayının bu bərəkətli gecəsində söyləyəcəyim nitqim xətiblərin adəti üzrə oruc tutanlara faydalı olacaq mövzular ətrafında, bu ayın fəziləti və əhkamları barədə olmayacaqdır. Mən önəmli olan başqa bir mövzu ətrafında danışmağı məqsədəuyğun bildim. Danışacağım mövzu İslam şəriətinin əsaslarından biri olan sünnənin (hədislərin) İslam qanunvericiliyində olan əhəmiyyətli rolunun izahı barədə olacaqdır.[2]

⁂ ⁂ ⁂

---

[1] Təbii ki, bu sözlər imamın necə təvazökar biri olduğunu göstərir.

[2] Sünnə, yaxud Peyğəmbər ﷺ hədisləri dedikdə, əsasən, üç şey nəzərdə tutulur:

- Peyğəmbərin ﷺ kəlamı;
- Peyğəmbərin ﷺ əməlləri;
- Peyğəmbərin ﷺ iqrarı, yəni təsdiqlədiyi, yaxud görüb və ya eşidib etiraz etmədiyi mövzular.

# HƏDİSLƏRİN QURANLA ƏLAQƏLİ ROLU

Hamınız bilirsiniz ki, Uca Allah Muhəmmədi ﷺ dinini təbliğ etmək üçün peyğəmbər olaraq seçmiş və ona Qurani-Kərimi nazil edərək həmin kitabda bir çox əmrlərlə yanaşı həm də məhz elə Quranın özünü insanlara bəyan etməyi əmr etmişdir.

Uca Allah bu barədə belə buyurur: *“Sənə də Zikri nazil etdik ki, insanlara onlara nazil olanı izah edəsən”* (ən-Nəhl, 44).

Bu ayədə qeyd olunan “izah” məfhumu (yəni “izah edəsən” ifadəsi) iki şeyi əhatə edir:

Birincisi, Quranın oxunuş qaydasını izah etmək, onun nazil olduğu orijinallıqda mətnini ümmətə çatdırmaq və ondan heç nəyi gizlətməmək nəzərdə tutulur. Necə ki, Aişə anamız demişdir: “Kim desə ki, Peyğəmbər Allahın əmrindən nəyisə gizlətmişdir, deməli, o artıq Uca Allaha böyük bir iftira yaxmışdır”. Daha sonra bu ayəni oxudu: *“Ey Peyğəmbər! Rəbbindən sənə nazil olanı təbliğ et!”* (əl-Maidə, 67 / hədisi Buxari və Müslim rəvayət etmişdir). İmam Müslimin qeyd etdiyi digər rəvayətdə isə belə deyilir: “Əgər Peyğəmbər Allahın əmrlərindən nəyisə gizlətmiş olsaydı, o zaman Uca Allahın bu kəlamını gizlədərdi: *“Bir zaman həm Allahın, həm də sənin özünün nemət verdiyin kəsə (Zeyd ibn Harisəyə): "Zövcəni yanında saxla, Allahdan qorx!" – deyirdin. Allahın aşkara çıxaracağı şeyi ürəyində gizli saxlayır və insanlardan çəkinirdin. Halbuki əslində qorxmalı olduğun məhz Allahdır”* (əl-Əhzab, 37).

İkincisi, izaha ehtiyac duyan ayələrin, cümlə və kəlmələrin mənasını ümmətə izah etmək. Bu çox vaxt mücməl, yaxud ümumi və ya geniş mənalı ayələrdə olur ki, sünnə (hədislər) də onu açıqlayıb bəyan edir. Bu isə ya Peyğəmbərin ﷺ kəlamı, ya əməli, ya da ki iqrarı ilə baş verir.

⁂ ⁂ ⁂

# QURANI ANLAMADA HƏDİSLƏRİN ÖNƏMİ

Uca Allah buyurur: *“Oğru kişinin və oğru qadının əllərini kəsin!”* (əl-Maidə, 38) Fikir versək, görərik ki, bu ayədə qeyd edilən “oğru” və “əl” ləfzləri ümumi mənalıdır. Peyğəmbərin ﷺ kəlamı bu ləfzlərdən birincisini açıqlayaraq bildirir ki, “oğru” dedikdə hər oğurluq edən kəs deyil, məhz dörddə bir dinar miqdarı və bundan artığını oğurlayan kəs nəzərdə tutulur.[1] Bu haqda Peyğəmbər ﷺ belə demişdir: *“Əl yalnız oğurlanan mal dörddə bir dinar miqdarı və daha artıq olduqda kəsilər”* (Buxari və Müslim).

Peyğəmbərin ﷺ, yaxud səhabələrin əməli və onun iqrarı bu ləfzlərdən ikincisini, yəni “əl” kəlməsini də açıqlamışdır. Belə ki, onlar oğrunun əlini hədis kitablarında da qeyd edildiyi kimi, biləkdən kəsərdilər.[2] Lakin təyəmmüm ayəsində, yəni Uca Allahın *“torpaqdan üzünüzə və əllərinizə sürtün”* (əl-Maidə, 6) kəlamında isə “əl”də məqsəd əlin üst qismidir. Peyğəmbər ﷺ bunu öz kəlamında bəyan edərək belə demişdir: *“Təyəmmüm – bir dəfə əli torpağa vurmaqla üzə və iki əlin üstünə çəkməkdir”* (Buxari, Müslim və Əhməd).

***Sizə sünnəsiz düzgün anlaşılması mümkünsüz olan bəzi ayələri təqdim edirəm:***

1. Uca Allah buyurur: *“İman gətirdikdən sonra imanlarına zülm qatışdırmayanları əmin-amanlıq gözləyir. Doğru yola yönəlmişlər də məhz onlardır”* (əl-Ənam, 82).

Səhabələr ayədə qeyd olunan “zülm” kəlməsini ümumi mənada anlayıb hər bir zülmü, hətta kiçik zülmləri də (xətaları da) ehtiva etdiyini düşünmüşdülər. Bu səbəbdən ayə onlara anlaşılmaz olduğu üçün Peyğəmbərə ﷺ sual verərək belə demişlər: “Ey

---

[1] Dinarın dörddə biri təqribən 1 qram qızıldan bir az çox dəyərə bərabərdir.

[2] Azərbaycan dilindən fərqli olaraq, ərəb dilində “əl” dedikdə qolun biləkdən aşağı hissəsi deyil, qolun çiyindən barmaq uclarına qədər olan tam hissəsi nəzərdə tutulur. Bu səbəbdən ayədə qeyd olunan “əl”də məqsədin nə olduğunu məhz hədislər vasitəsi ilə öyrənmiş oluruq.

Allahın rəsulu, bizdən kim imanına zülm qatmır ki (yəni kim xəta etmir ki)?” Peyğəmbər ﷺ isə belə cavab verdi: *“Bu sizin anladığınız mənada deyildir. Ayədə nəzərdə tutulan “zülm” şirkdir. Loğmanın (oğluna nəsihətindəki) sözünü eşitməmisiniz? “Həqiqətən, şirk böyük zülmdür”* (Loğman, 13 / Buxari və Müslim).

2. Uca Allah buyurur: *“Yer üzündə səfərə çıxdığınız zaman kafirlərin sizə zərər yetirəcəklərindən qorxarsınızsa, namazı qısaltmanıza görə sizə günah gəlməz. Şübhəsiz ki, kafirlər sizin açıq-aydın düşmənlərinizdir”* (ən-Nisa, 101).

Bu ayənin zahiri mənasından belə anlaşılır ki, səfərdə olarkən yalnız təhlükə varkən namazları qısaltmaq olar, əks halda isə yox. Buna görə də bəzi səhabələr Peyğəmbərə ﷺ sual verərək belə dedilər: “Ey Allahın elçisi, əmin-amanlıq halında səfərdə namazları nə üçün qısaltmalıyıq ki?” Peyğəmbər ﷺ belə cavab verdi: *“Bu, Allahın sizə verdiyi sədəqəsidir. Onun sədəqəsini qəbul edin!”* (Müslim).

3. Uca Allah buyurur: *“Leş (ölü) və qan sizə haram edildi”* (əl-Maidə, 3). Peyğəmbərin ﷺ sünnəsi isə bəyan etmişdir ki, çəyirtkə və balığın ölüsü, qanlardan isə ciyər və dalaq istisnadır – halaldır. Allah rəsulu ﷺ demişdir: *“İki növ ölü və iki növ qan bizə halal edilmişdir: çəyirtkə və (hər növ) balıq, ciyər və dalaq”* (Beyhəqi bu hədisi həm Peyğəmbərdən, həm də səhabələrdən nəql etmişdir).

4. Uca Allah buyurur: *“De: Mənə vəhy olunanlar içərisində ölü heyvan, axar qan, murdar sayılan donuz əti və Allahdan başqasının adı ilə kəsilmiş murdar heyvanlardan başqa, hər hansı bir şəxsin yediyi yeməklər içərisində haram buyurulan bir şey görmürəm”* (əl-Ənam, 145).

Daha sonra Peyğəmbərin ﷺ sünnəsi bu ayədə qeyd olunmayan başqa şeyləri də haram buyurmuşdur. Buna misal olaraq, Peyğəmbərin ﷺ bu hədislərini qeyd etmək olar: *“Köpək dişli hər bir heyvanın və caynaqlı hər bir quşun əti haramdır”* (Müslim); *“Həqiqətən, Allah və Rəsulu ev uzunqulaqlarının ətini yeməyi sizə qadağan edir, çünki o, murdardır”* (Buxari və Müslim).

5. Uca Allah buyurur: *“De: Allahın Öz qulları üçün üzə çıxartdığı zinəti və təmiz ruziləri kim haram etmişdir? De: Bunlar dünya həyatında hamıya, Qiyamət günü isə yalnız möminlərə məxsusdur”* (əl-Əraf, 32).

Peyğəmbərin ﷺ sünnəsi bəyan etmişdir ki, zinət əşyalarından haram olanları da mövcuddur. Belə ki, bir gün Allah rəsulu ﷺ bir əlində ipək, digər əlində qızıl tutmuş halda səhabələrin qarşısına çıxdı və belə dedi: *“Bu ikisi ümmətimin kişilərinə haram, qadınlarına isə halaldır”* (Hədisi Hakim rəvayət etmiş və səhih olduğunu demişdir). Bu mənada hədislər çoxdur, Buxari və Müslim də daxil olmaqla digər hədis kitablarında da mövcuddur. Təbii ki, burada mövzu ilə əlaqədar hədis və fiqh alimlərinə də bəlli olan çoxsaylı misallar qeyd etmək olar.

Ötən misallardan da aydın olur ki, Peyğəmbər ﷺ hədislərinin İslam qanunvericiliyində əhəmiyyətli rolu vardır. Elə təkcə yuxarıda qeyd edilən misallara diqqət yetirmək kifayət edər ki, Qurani-Kərimi düzgün şəkildə anlamağın yalnız hədislərlə mümkün olduğunu anlaya bilək.

Belə ki, yuxarıda qeyd edilən birinci misalda səhabələr ayədə zikr olunan “zülm” kəlməsini zahiri mənasında anlamışdılar. Deməli, səhabələr Abdullah ibn Məsudun ﷺ da dediyi kimi, bu ümmətin ən fəzilətli, ən təmizqəlbli, ən elmli və ən zəkalı fərdləri olmalarına baxmayaraq, bu ayəni anlamaqda xətaya yol vermişdilər. Əgər Peyğəmbər ﷺ onların səhvini düzəltməsəydi və “zülm” kəlməsinin “şirk” mənasında olduğunu onlara bildirməsəydi, biz də bu xətalarında onların izi ilə gedər və bu ayəni səhv anlayardıq. Lakin Uca Allah Peyğəmbərin ﷺ, onun sünnətinin sayəsində bizi bu səhvdən qorudu.

İkinci misalda isə həmin hədis olmasaydı, səfər zamanı əmin-amanlıq halında namazın qısaldılıb-qısaldılmayacağı məsələsində şəkk-şübhədə olardıq. Çünki ayənin zahiri mənasına görə yalnız təhlükə halında namazı qısaltmaq olar. Əgər səhabələr Peyğəmbəri ﷺ namazlarını qısaldan görməsəydilər və əmin-amanlıq halında onunla birgə namazlarını qısaldaraq qılmasaydılar, bu məsələ bəzi səhabələrin ağlında yenə də sual olaraq qalardı.

Üçüncü misalda isə hədis olmasaydı, bizə halal olan çəyirtkə, balıq, ciyər və dalaq kimi pak nemətləri özümüzə haram etmiş olardıq.

Dördüncü misalda Peyğəmbərin ﷺ bəyanı olmasaydı, Allahın Öz Peyğəmbərinin dili ilə bizə haram etdiyi köpək dişli heyvanların və caynaqlı quşların ətini halal edərdik.[1]

Həmçinin beşinci misalda da əgər hədislər olmasaydı, Allahın Öz Peyğəmbərinin dili ilə bizə (yəni kişilərə) haram etdiyi qızıl və ipəyi özümüzə halal edərdik.

Ona görə də sələflər deyərdilər: "Sünnə Quran üzərində hökmdardır".[2]

⁂ ⁂ ⁂

[1]Peyğəmbərin ﷺ sünnəsinə dırnaqarası baxan, onu qəbul etməyən və "dinin halal-haramı yalnız Quranın bəyan etdikləridir" deyən bəzi cahillər gərək əl-Ənam surəsi, 145-ci ayəyə əsasən, eşşək ətini, it ətini və bu kimi murdar ətləri özlərinə halal bilsinlər.

[2] Sələflərdən bu və buna oxşar kəlamlar nəql olunmuşdur. Misal olaraq tabiinlərdən Yəhya ibn Əbu Kəsirin sözünü qeyd etmək olar. O demişdir: "Quran sünnə üzərində deyil, sünnə Quran üzərində hökmdardır" (Mərvəzi "əs-Sünnə", 103, Dərimi, 607). Bu sözün mənası budur ki, yəni Peyğəmbər ﷺ hədisləri Quranı şərh edir. Fəzl ibn Ziyad nəql edir ki, Əhməd ibn Hənbəldən "sünnə Quran üzərində hökmdardır" sözü barədə soruşduqda imam belə demişdir: "Mən belə bir sözü deməyə cürət edə bilmərəm, lakin mən belə deyərdim: "Sünnə Quranı şərh edir" (Zərkəşi "Bəhrul-muhit" 6/11).

## SÜNNƏYƏ EHTİYAC OLMADIĞINI İDDİA EDƏNLƏRİN ZƏLALƏTİ

Çox təəssüflər olsun ki, bəzi təfsirçilərin (Quran şərhçilərinin) və müasir yazarların içərisində sünnəni bir kənara qoyaraq və yalnız Qurana istinad edərək son iki misalda qeyd etdiyimiz köpək dişli heyvanların ətini, qızıl və ipək geyinməyi halal sayanlar olmuşdur. Hətta zamanımızda özlərini "Quranilər", yaxud "Qurançılar" adlandıran bir firqə peyda olmuşdur ki, Qurani-Kərimi səhih hədislərə istinad etmədən məhz öz nəfslərinə və ağıllarına uyğun bir şəkildə təfsir edirlər. Əslində, onlar sünnəni də öz nəfslərinə tabe edirlər, özlərinə sərf edəni götürür, sərf etməyəni isə bir kənara atırlar. Peyğəmbərimiz ﷺ isə belə bir firqənin gələcəyini qabaqcadan xəbər vermiş və bu haqda səhih hədisində belə demişdir: *"Sizlərdən heç kəsi öz oturacağına dirsəklənərək mənim əmr və qadağalarımdan birini eşitdikdə: "Bilmirəm, Quranda nə tapsaq məhz ona tabe olarıq", – deyən görməyim!"* (Tirmizi). Digər rəvayətdə isə belə deyilir: *"Sizlərdən heç kəsi öz oturacağına dirsəklənərək mənim əmr və qadağalarımdan birini eşitdikdə: "Yalnız Quranda haram olan bir şeyi haram hesab edərik", – deyən görməyim! Agah olun ki, mənə Quran və ona oxşarı (sünnə) verilmişdir"* (Əhməd).[1] Başqa rəvayətdə isə belə

[1] Peyğəmbərin ﷺ *"agah olun ki, mənə Quran və ona oxşarı (sünnə) verilmişdir"* sözü sünnənin də Quran kimi vəhy olduğunun və Allah tərəfindən nazil edildiyinin dəlilidir. Uca Allah bu haqda belə buyurur: *"Allah sənə Kitabı və hikməti (Quranı və sünnəni) nazil etdi və bilmədiyin şeyləri sənə öyrətdi"* (ən-Nisə, 113); *"Savadsız qövmə öz içlərindən elçi göndərən Odur. Elçi onlara Allahın ayələrini oxuyar, onları pis əməllərdən təmizləyər, onlara Kitabı və hikməti öyrədər. Halbuki onlar əvvəllər açıq-aydın azğınlıq içində idilər"* (əl-Cumua, 2); *"Evlərinizdə oxunan Allahın ayələrini və hikməti yada salın!"* (əl-Əhzab, 34). İmam Şafii hədis inkarçılarından birinə bu ayəni dəlil gətirərək belə demişdir: "Uca Allah bu ayədə bizə bəyan edir ki, onların (yəni Peyğəmbərin zövcələrinin və səhabələrin) evində iki şey oxunardı: Quran və hikmət (sünnə). Bu ayə dəlildir ki, hikmət Qurandan kənar və ayrı bir şeydir" ("Ciməul-elm", 9).

demişdir: *"Bilin ki, Allah Rəsulunun haram etdiyi şey eynilə Allahın haram etdiyi şey kimidir"* (İbn Macə).[1]

Təəssüflər olsun ki, bəzi yazarlar İslam şəriəti və etiqadı barədə kitablar qələmə alır və kitabın müqəddiməsində yalnız Qurana əsaslandıqlarını bildirirlər.

Əslində isə bu səhih hədis açıq bir şəkildə dəlalət edir ki, İslam şəriəti təkcə Qurandan ibarət deyil, Quran və sünnədən ibarətdir. Kim Quran və sünnəni bir-birindən ayıraraq, birinə tabe olub digərini tərk edərsə, heç birinə tabe olmamış olar. Çünki onlardan hər biri digərinə tabe olmağı əmr edir.

Uca Allah buyurur: *"Kim Peyğəmbərə itaət edərsə, Allaha itaət etmiş olar"* (ən-Nisə, 80).

Başqa bir ayədə: *"Xeyr! Sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən çəkişmələrdə səni hakim təyin etməyincə, sonra da verdiyin hökmlərə görə içlərində bir sıxıntı duymadan tam təslim olmayınca iman gətirmiş olmazlar"* (ən-Nisə, 65).

Digər ayədə isə: *"Allah və Onun elçisi bir işə hökm verdiyi zaman heç bir mömin kişi və mömin qadın öz işlərində istədikləri qərarı verə bilməzlər. Allaha və Onun Elçisinə asi olan kəs, əlbəttə ki, açıq-aydın azğınlığa düşmüşdür"* (əl-Əhzab, 36).

Başqa bir ayədə isə belə deyilir: *"Peyğəmbər sizə nə verirsə, onu götürün, nəyi də qadağan edirsə, ondan çəkinin!"* (əl-Həşr, 7).

Bu məqamda Abdullah ibn Məsuddan ﵁ rəvayət edilən bir hadisəni xatırlamaq yerinə düşərdi. Belə ki, bir dəfə bir qadın onun yanına gəlib belə deyir: "Allah bədəninə şəkil döyən və döydürən, qaşlarını alan və aldıran qadınlara lənət etsin!" deyən sənsən? İbn Məsud ﵁ "bəli", – dedikdə qadın ona belə deyir: "Mən Allah kitabı Quranı əvvəlindən sonuna kimi oxumuşam, amma sənin bu dediklərinə rast gəlməmişəm". Abdullah ibn Məsud ﵁ qadına belə deyir: "Əgər oxumuş olsaydın, tapardın! Məgər sən *"Peyğəmbər*

---

[1] Misal olaraq, Uca Allah Öz kərim Kitabında iki bacı ilə eyni vaxtda evlənməyi qadağan etmiş və belə buyurmuşdur: *"İki bacını birlikdə almaq haram edildi"* (ən-Nisə, 23). Peyğəmbər ﷺ də qadınla onun xalası, yaxud bibisi ilə birlikdə evlənməyi qadağan etmiş və belə demişdir: *"Qadınla onun bibisini, yaxud xalasını birlikdə almaq icazəli deyildir"* (Buxari, 5109 və Müslim, 1408).

*sizə nə verirsə, onu götürün, nəyi də qadağan edirsə, ondan çəkinin!"* ayəsini oxumamısan?" Qadın: "Bəli, oxumuşam", – dedikdə İbn Məsud ﵁ belə cavab verir: "Mən də Peyğəmbərin ﷺ: *"Allah bədəninə şəkil döyən və döydürən, qaşlarını alan və aldıran qadınlara lənət etsin!"* dediyini eşitmişəm" (Buxari və Müslim).

⁂ ⁂ ⁂

# ƏRƏB DİLİNİ BİLMƏK QURANI ANLAMAQ ÜÇÜN KİFAYƏT DEYİL

Öncəki səhifələrdə qeyd etdiklərimizdən də aydın olur ki, insan nə dərəcədə ərəb dili və ədəbiyyatına vaqif olursa-olsun, Peyğəmbərin ﷺ hədislərinin köməyi olmadan Quranı düzgün bir şəkildə anlaya bilməz. Biz ərəb dilini nə qədər yaxşı bilsək də, Peyğəmərin ﷺ səhabələrindən yaxşı bilə bilmərik. Çünki Quran məhz onların dilində nazil olmuş, üstəlik, dilləri əcəmlərin dilinə qarışıb korlanmamışdır. Buna rəğmən, yuxarıda qeyd etdiyimiz kimi, onlar da yalnız dilə (dil bilgisinə) etibar edərək Quran ayələrini səhv anlamışdılar.

Nəticə etibarı ilə deyə bilərik ki, sünnəni mükəmməl bilən birisi sünnədən bixəbər olan kəsdən Quranı və Quranda olan şəriət ehkamlarını daha yaxşı dərk edər. Əgər bu belədirsə, o zaman sünnəyə etibar etməyənlərin və hədisləri inkar edənlərin halı, sizcə, necə olar?

Buna görə də alimlər arasında qəbul olunmuş qaydalardan biri də budur ki, Quran ilk öncə Quran və sünnə ilə[1], daha sonra səhabələrin sözləri və s. qaydalarla təfsir edilməlidir.

Beləcə bizə qədim və müasir kəlamçıların zəlalətə düşmə və nəinki əməllərində, hətta etiqadlarında belə sələfə müxalif olmalarının səbəbi aydın olur. Çünki onlar sünnədən və hədisləri öyrənməkdən uzaq qaldılar, Allahın ad və sifətlərini, habelə digər mövzuları öz nəfslərinə və ağıllarına uyğun şəkildə anlamağa çalışdılar.

"Təhavi əqidəsinin şərhi" kitabında (səh. 212) nə gözəl deyilir: "İslam dinini Quran və sünnədən deyil, kiminsə dediklərindən götürən kəs İslamın əsaslarından necə danışa bilər?! Həmçinin dinin əsaslarını Qurandan götürdüyünü iddia edib, onun təfsirində

---

[1] Diqqət yetirsək görərik ki, burada imam Əlbani "Quran və sonra sünnə" demədi, "Quran və sünnə" deyə qeyd etdi. Bu məsələ, çox təəssüflər olsun ki, bir çoxlarının yol verdiyi xətalardandır. Bu barədə müəllif risalənin sonunda ətraflı məlumat verəcəkdir.

Peyğəmbərin ﷺ kəlamına və bizə yalnız Quranın mətnini deyil, o cümlədən də mənasını çatdıran səhabə və tabiinlərin rəvayətlərinə əsaslanmayan kəs necə İslamın əsaslarından danışa bilər?! Çünki onlar (səhabə və tabiinlər) uşaqlar kimi yalnız Quranın ləfzini deyil, həm də mənasını öyrənərdilər. Kim onların yoluna tabe olmazsa, öz ağlı ilə danışmış olar. Quran və sünnə ilə deyil, öz ağlı və zənni ilə danışan kəs isə, düz söz desə belə, asidir, günahkardır. Lakin elmini Quran və sünnədən əxz edən kəs isə xəta etsə belə, savab qazanar, əcr əldə edər, düz söz söylədiyi vaxt isə əcri ikiqat olar".

Həmin kitabın 217-ci səhifəsində isə belə deyilir: "Peyğəmbərə ﷺ kamil bir şəkildə tabe olub əmrlərinə boyun əymək, onun dediklərini qəbul edib təsdiqləmək vacibdir. Həmçinin onun sünnəsini batil xəyallarımızla – ağlımızla müqayisə etməməli, sünnəsinə şübhə ilə yanaşmamalı və heç kəsin rəyini, zehinlərdə olan çürük fikirləri onun sözündən üstün tutmamalıyıq. Uca Allahı qulluğa, ibadətə və təvəkkül olunmağa haqqı çatan yeganə ilah qəbul etdiyimiz kimi, Onun Peyğəmbərini ﷺ də təslimiyyətə, özünə tabe olunmağa və hökm verməyə layiq olan yeganə şəxs kimi qəbul etməliyik".

Xülasə, bütün müsəlmanlara Quran və sünnəni bir-birindən ayırmamaları, hər ikisi birlikdə qəbul edib, şəriət ehkamlarını onların üzərində bərqərar etmələri vacibdir. Yalnız bu halda sağa-sola meyil etməyəcəklərinə və zəlalət yollarına düşməyəcəklərinə zəmanət vardır. Necə ki, Peyğəmbərin ﷺ özü bu haqda belə demişdir: *"Aranıza iki şeyi qoyub gedirəm, onlardan bərk-bərk tutduğunuz müddətcə heç vaxt haqq yoldan azmayacaqsınız. Həmin iki əmanət: Allahın kitabı və mənim sünnəmdir. Bu ikisi hesab günü Hovuz ətrafında toplaşana (yəni Qiyamət gününə) qədər bir-birindən ayrılmayacaqdır"* (Hədisi imam Malik naqis, Hakim isə tam və yaxşı sənədlə rəvayət etmişdir).

⁂ ⁂ ⁂

## MÜHÜM QEYD

İslam şəriətində bu cür böyük əhəmiyyətə malik olan sünnə dedikdə məhz hədis alimlərinin bəyan etdikləri, elmi əsaslarla və etibarlı yollarla bizə gəlib çatmış hədislər nəzərdə tutulur. Yoxsa, sünnə dedikdə müxtəlif növ təfsir, fiqh və əxlaqi mövzulardan bəhs edən kitabların içində yer almış və Peyğəmbərə ﷺ nisbət olunmuş hər hədis nəzərdə tutulmur. Çünki bu cür kitabların içində əsli olmayan çoxsaylı zəif və uydurma hədislər mövcuddur. Hətta o hədislərdən bəziləri, ümumiyyətlə, İslamın ruhuna yaddır. Buna misal olaraq Harut və Marut, habelə Ğaraniq qissəsindən bəhs edən hədisi qeyd etmək olar. Mənim Ğaraniq qissəsi və bu qissənin batil olması barədə artıq işıq üzü görmüş bir kitabım mövcuddur.[1] Həmçinin mənim "Zəif və uydurma hədislər silsiləsi" adlı böyükhəcmli bir kitabım vardır ki, orada bu növ hədislərdən böyük bir qismini bəyan etmişəm. Hal-hazırda həmin kitabda qeyd olunan zəif və uydurma hədislərin sayı dörd minə çatmışdır.[2]

Elm əhlinə, ələlxüsus kitabları və fətvaları insanlar arasında yayqın olan alimlərə vacib olan budur ki, gərək onlar hədislərin səhihliyini dəqiqləşdirdikdən sonra onun əsasında hökm versinlər. Çünki onların əksər hallarda müraciət etdikləri fiqh kitablarının çoxu, elm əhlinə də bəlli olduğu kimi, əsli olmayan hədislərlə doludur.

Beləcə mən özüm önəmli bir işə – "Əsas fiqh kitablarında mövcud olan zəif və uydurma hədislər" adlı bir kitabın təlifinə

---

[1] Bəzi təfsir və tarix kitablarında qeyd olunan bu qissənin xülasəsi belədir: Peyğəmbər ﷺ Məkkə müşriklərinin yanında ikən Cəbrayıl ona ən-Nəcm surəsinin 19 və 20-ci ayələrini endirdikdə şeytan vəhyin arasına girmiş və bütləri mədh edəcək kəlmələri Peyğəmbərə ﷺ fısıldamışdır. Beləcə o da şeytanın dediklərinin vəhydən olduğunu zənn edib onları Allahın kəlamı ilə (Quranla) birgə oxumuşdur. Heç şübhəsiz ki, bu qissə tamamilə əsilsiz, batil bir qissədir. Bu barədə geniş məlumat almaq istəyən kəs imam Əlbaninin "Nasbul-məcəniq linəsfi qissatil-ğaraniq" adlı kitabına müraciət edə bilər.

[2] Bu kitab sonrakı illərdə tam şəkildə nəşr olunmuşdur və şeyx bu kitabda yeddi mindən artıq hədisin zəif və uydurma olduğunu bəyan etmişdir.

başlamışam. Düşünürəm ki, belə bir əsər fiqh elmi ilə yaxından maraqlanan kəslər üçün çox faydalı olacaqdır. Həmin əsərdə adlarını aşağıda qeyd etdiyi fıqh kitablarında mövcud olan hədisləri araşdırmışam:

- Hənəfi alimi Mərğinaninin "əl-Hidayə" kitabı;
- Maliki alimi İbn Qasimin "əl-Mudəvvənə" adlı əsəri;
- Şafi alimi Rafinin "Şərhul-vəciz" kitabı;
- Hənbəli alimi İbn Qudamənin "əl-Muğni" əsəri;
- İbn Rüşdün müqayisəli fiqhə dair qələmə aldığı "Bidəyətül-müctəhid" kitabı.

Lakin, təəssüflər olsun ki, hələ də bu kitabı tamamlaya bilməmişəm. İnşallah, nəsib olarsa, fiqh elmi ilə məşğul olan qardaşlarıma dəstək olmaq yönündən hədis kitablarına müraciət etmək yolu ilə hədislərin səhih-zəifliyini bilməyin ən asan yolunu izah edəcək dəqiq elmi metod əsasında bir kitab qələmə almaq istəyirəm. Şübhəsiz ki, müvəffəqiyyət Allahdandır![1]

⁂ ⁂ ⁂

[1] Ümumiyyətlə, imam Əlbani bu bölümdə onu qeyd etmək istəyir ki, hədislərin içərisində zəif və uydurma hədislər mövcuddur deyə, bütövlükdə sünnəni inkar etmək, yaxud şübhə altına almaq düzgün deyildir. Çünki zəif və uydurma hədisləri biz də qəbul etmirik, lakin bu bizim sünnədən üz çevirməmizə səbəb olmamalıdır. Əgər zəif və uydurma hədislərin mövcudluğuna görə sünnə şübhə altına alınarsa, o zaman Quran da şübhə altına alınmalıdır. Çünki Quranın da on səhih (etibarlı) qiraəti ilə yanaşı məqbul sayılmayan digər zəif və hətta əsli olmayan uydurma qiraətləri də mövcuddur. Həmçinin onu da vurğulamalıyam ki, hər hansı bir qiraət növü, yaxud hər hansı bir hədis zəif və ya uydurmadır deyə, qəbul edilmirsə, bu, (hədis inkarçılarının etdiyi kimi) nəfsi istəklərə görə deyil, elmi qaydalara əsasən edilməlidir.

## MUAZ İBN CƏBƏLİN ﷺ RƏY BARƏDƏ OLAN MƏŞHUR HƏDİSİNİN ZƏİF OLDUĞUNUN BƏYANI

Sözümü yekunlaşdırmamışdan öncə bu mühazirədə iştirak edən qardaşlarımın diqqətini məşhur bir hədisə yönəltmək istəyirəm. Həmin hədisin zəif olmasına və bu mühazirədə də qeyd etdiyimiz kimi, Quranla sünnəni bir-birindən ayırmağın icazəli olmamasına rəğmən, sözügedən hədis demək olar ki, bütün fiqh üsulu kitablarında mövcuddur. Həmin hədis Muaz ibn Cəbəlin ﷺ rəy barədə olan məşhur hədisidir. Rəvayətdə qeyd olunur ki, Peyğəmbər ﷺ Muazı Yəmənə göndərdikdə ona belə dedi:

– *“Nə ilə hökm verəcəkən?”*

Muaz ﷺ:

– “Allahın Kitabı ilə”.

– *“Həmin hökmü Allahın Kitabında tapmasan necə?”*

– “O zaman Peyğəmbərin sünnəsi ilə hökm verəcəyəm”.

– *“Sünnədə tapmasan necə?”*

– “Bacardığım qədər ictihad edəcəyəm (yəni öz rəyimlə hökm verəcəyəm)”.

– *“Peyğəmbərin elçisini (Muazı) sevdiyi əmələ müvəffəq edən Allaha həmd olsun!”*[1]

Bu hədisin sənəd yönündən zəifliyinə gəldikdə, bunu bəyan etmək buranın yeri deyildir. “Zəif və uydurma hədislər silsiləsi” kitabımda bu məsələni geniş və kifayət edəcək səviyyədə izah etmişəm.[2] Burada isə onu demək kifayət edər ki, hədis elmində müsəlmanların əmiri sayılan imam Buxari bu hədis barədə “münkər” demişdir. İndi isə əsas məsələyə keçərək bu hədisin mətnində olan uyğunsuzluq barədə danışmaq istəyirəm.

Deməli, bu hədis hökm verən hakim, fətva verən alim barədə ortaya üç mərhələdən ibarət elmi bir metod qoyur. Belə ki, alim əldə etmək istədiyi məsələni sünnədə tapdığı müddətcə öz rəyi ilə ictihad edə bilməz, Quranda tapdığı müddətcə də sünnəyə müraciət

---

[1] Əhməd 36/417, Əbu Davud, 3592.

[2] Bax: “Zəif və uydurma hədislər silsiləsi”, 885-ci hədis.

edə bilməz. Rəy məsələsinə gəldikdə, bu, həqiqətdir. Doğrudan da, sünnədə dəlil olduğu müddətcə rəy əsasında hökm verməyin bir mənası yoxdur. Alimlər bu haqda belə demişlər: “Hədis varsa, rəyə yer yoxdur”. Lakin sünnə məsələsinə (yəni “alim əldə etmək istədiyi məsələni Quranda tapdığı müddətcə sünnəyə müraciət edə bilməz” qaydasına) gəldikdə isə bu əsla qəbuledilməzdir. Çünki sünnə Quranı açıqlayan və onu izah edən mənbədir. Ona görə də hər hansı bir məsələ araşdırıldıqda Quranda olduğu var sayılsa belə, həmin məsələ Quran və sünnədə paralel araşdırılmalıdır. Çünki sünnənin Qurana olan nisbəti rəyin sünnəyə olan nisbəti kimi deyildir. Əksinə, Quran və sünnə tək bir mənbə kimi qəbul edilməli və onların arası qətiyyən ayrılmamalıdır. Necə ki, bu qaydanı bizə Peyğəmbərimiz ﷺ öyrətmiş və bu haqda belə demişdir: “*Agah olun ki, mənə Quran və ona oxşarı (sünnə) verilmişdir”* (Əhməd); “*Bu ikisi hesab günü Hovuz ətrafında toplaşana (yəni Qiyamət gününə) qədər bir-birindən ayrılmayacaqdır”* (Malik və Hakim). Deməli, Quran və sünnəni yuxarıda qeyd edilən formada təsnifləndirmək düzgün deyildir və bu onların arasını ayırmaq sayılır ki, bu da qeyd etdiyimiz kimi, tamamilə batildir.

Mövzu ilə əlaqədar qeyd etmək istədiyim məhz bu idi. Əgər haqqa müvəffəq oldumsa, Allahdan, xəta etdimsə, nəfsimdəndir. Uca Allahdan diləyim bizi və sizi xətalardan və Onu razı salmayacaq hər bir işdən qorumasıdır. Son duamız isə aləmlərin Rəbbi olan Allaha həmd etməkdir.

⁂ ⁂ ⁂

# MÜNDƏRİCAT

Müqəddimə.......................................................................... 4
Hədislərin İslamda yeri..............................................................5
Hədislərin Quranla əlaqəli rolu...................................................7
Quranı anlamada hədislərin önəmi..............................................8
Sünnəyə ehtiyac olmadığını iddia edənlərin zəlaləti...................... 12
Ərəb dilini bilmək Quranı anlamaq üçün kifayət deyil................. 15
Mühüm qeyd.................................................................................. 17
Muaz ibn Cəbəlin ﷺ rəy barədə olan məşhur hədisinin zəif olduğunun bəyanı.........................................................................19